# Avropa Şurası və Avropa İttifaqı Azərbaycan, Belarus Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna üçün Proqram Əməkdaşlığı Çərçivəsi 2015-2020



## İnsan hüquqları, demokratiya və qanunun aliliyinin təşviqi üçün birgə səy göstərək

**Programmatic Cooperation Framework for Armenia, Azerbaijan, Georgia, Republic of Moldova, Ukraine and Belarus**

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe




Avropa Şurası və Avropa İttifaqı (Aİ) müxtəlif lakin bir-birini tamamlayan rollara malik ayrı-ayrı təşkilatlardır.

- Avropa Şurası qitədə və ondan kənarda insan hüquqları və demokratiyanı gücləndirmək məqsədilə 47 üzv dövlətlə birlikdə çalışır.
- Avropa İttifaqı bəzi siyasi sahələrdə qanunvericiliyi və praktikaları uyğunlaşdıraraq 28 üzv dövlətini həm iqtisadi həm də siyasi baxımdan daha da yaxınlaşdırır.
- Şərqi Avropa qonşu ölkələri Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna ilə daha yaxından əməkdaşlıq etmək üçün Avropa İttifaqı Şərq Tərəfdaşlığını yaratdı.
- Hər iki təşkilat birgə maraqlara sahib olduqları sahələrdə xüsusən də insan hüquqları və demokratiyanın Avropada və qonşu regionlarda təşviqi sahəsində sıx əməkdaşlıq edir.
- Avropa İttifaqı və Avropa Şurası arasındakı əməkdaşlıq hər bir təşkilata digərinin xüsusi güclü tərəflərindən istifadə etməyə və beləcə bir-birlərinin işini dəstəkləməyə imkan verir.

## Avropa Şurasının 47 üzv dövləti

- Albaniya, Almaniya, Andorra, Avstriya, Azərbaycan, Belçika, Birləşmiş Krallıq, Bolqarıstan, Bosniya və Herzoqovina, Çex Respublikası, Danimarka, Ermənistan, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, İrlandiya, İslandiya, İspaniya, İsveç, İsveçrə, İtaliya, "Keçmiş Yuqoslav Respublikası Makedoniya", Kipr, Latviya, Litva, Lixtenşteyn, Lüksemburq, Macarıstan, Malta, Moldova Respublikası, Monako, Monteneqro, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Rusiya Federasiyası, San Marino, Serbiya, Slovakiya Respublikası, Sloveniya,Türkiyə, Ukrayna.

## Avropa İttifaqının 28 üzv dövləti

- Almaniya, Avstriya, Belçika, Birləşmiş Krallıq, Bolqarıstan, Çex Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, İrlandiya, İspaniya, İsveç, İtaliya, Kipr , Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Xorvatiya,Yunanıstan.




## PROQRAM ƏMƏKDAŞLIĞI ÇƏRÇIVƏSI NƏDIR?

2014-cü ilin aprel ayında Avropa İttifaqı (Aİ) və Avropa Şurası (AŞ) Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri olan Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarusla məqsədyönlü əməkdaşlıq fəaliyyətlərinin "Proqram Əməkdaşlığı Çərçivəsi" daxilində tətbiq edilməsinə dair Niyyət Protokolu imzaladı.

Əməkdaşlıq fəaliyyətləri Belarus istisna olmaqla Avropa Şurasının üzvü olan Şərq Tərəfdaşlığı ölkələrinin potensialının gücləndirilməsinə və onları Avropa Şurası və Avropa İttifaqının insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrindəki standartlarına daha da yaxınlaşdırmaq məqsədilə yerli islahatların icrasına yönəlib.

## PROQRAM ƏMƏKDAŞLIĞI ÇƏRÇIVƏSI NƏ VAXTA QƏDƏR DAVAM EDƏCƏK?

Proqram Əməkdaşlığı Çərçivəsi 2014-cü ilin dekabrında imzalanıb və iki mərhələdə tətbiq ediləcək: 2015 2017 və 2018-2020. Aralıq qiymətləndirmə 2017-ci ildə və son qiymətləndirmə 2020-ci ildə həyata keçiriləcək.

## PROQRAM ƏMƏKDAŞLIĞI ÇƏRÇIVƏSININ BÜDCƏSI NƏ QƏDƏR OLACAQ?

Layihənin ilk mərhələsinin (2015-2017) icrasına lazım olan büdcə 33.8 milyon avrodur. Proqram Əməkdaşlığı Çərçivəsinin 90%-i Avropa İttifaqı və 10%-i Avropa Şurası tərəfindən maliyyələşdirilir və Avropa Şurası tərəfindən icra edilir.

# PROQRAM ƏMƏKDAŞLIĞI ÇƏRÇİVƏSININ FƏALIYYƏTI NƏDƏN IBARƏT OLACAQ?

Proqram Əməkdaşlığı Çərçivəsi üzrə əməkdaşlığın beş prioritet sahəsi (və ya "mövzuları") Avropa İttifaqı ilə birgə müəyyən edilib. Sözügedən beş mövzu ökəyə xas və regional 50 tədbirlə nəticələnən 15 alt-mövzuya ayrılır.

## Mövzu I: İnsan hüquqlarının müdafiəsi və təşviqi

- Avropa İnsan Hüquqları standartlarının regional və yerli səviyyədə icrasının gücləndirilməsi
- milli və etnik azlıqların hüquqlarının müdafiəsi
- bərabərlik və insan ləyaqətinin təşviqi
- insan hüquqları sahəsində tədrisin və demokratik vətəndaşlığın təşviqi

## Mövzu II: Ədalət mühakiməsinin təmin olunması

- ədliyyə sisteminin müstəqilliyinin və səmərəliliyinin gücləndirilməsi
- konstitusional ədalətin gücləndirilməsi
- penitensiar islahatların təşviqi (cəzalandırma yanaşmasından reabilitasiya yanaşmasına doğru)

## Mövzu III: Qanunun aliliyinə müdaxiləyə qarşı mübarizə

- Korrupsiya ilə mübarizə və mütərəqqi idarəçiliyin təşviqi/ /çirkli pulların yuyulması ilə mübarizə
- Kiber cinayətlərə görə cinayət məsuliyyətinə cəlbetmə tədbirləri

## Mövzu IV: İnformasiya cəmiyyətinin problemlərinə müraciət

- medianın azadlığını, müstəqilliyini, plüralizmini və müxtəlifliyini təkmilləşdirmək
- informasiya cəmiyyəti və internet idarəçiliyi
- məlumatların qorunması hüququnu inkişaf etdimək

## Mövzu V: Demokratik idarəçiliyin təşviqi

- seçki qanunvericiliyi və təcrübəsinə dair islahatlara dəstək
- yerli idarəçilik üzrə institusional strukturların gücləndirilməsi

Avropa Şurasının Baş Katibi və Nazirlər Komitəsi üzv dövlətlərlə əməkdaşlığın prioritet sahələrini müəyyən edirlər və bunlar da ölkənin Fəaliyyət Planlarında öz əksini tapır.

Avropa Şurası çoxinstutisional üstünlüyə malikdir və Parlament Assambleyası və Yerli və Regional Hakimiyyət Orqanları Konqresi vasitəsilə bütün Şərq Tərəfdaşlığı ölkələrində milli, regional və yerli səviyyələrdə müxtəlif institutların və tərəfdaşların iştiraka cəlb edilməsi məqsədilə Proqram Əkəmdaşlığı Çərçivəsinə imkan yaradacaq.

Proqram Əməkdaşlığı Çərçivəsinin bütün fəaliyyətləri gender bərabərliyi məsələsi üzrə vahid yanaşma , azlıqların hüquqlarının qorunması kimi çoxşaxəli məsələləri nəzərdə tutacaq və həmçinin vətəndaş cəmiyyətinin Proqram Əməkdaşlığı Çərçivəsinin tətbiq edilməsində yaxından iştirakını təmin edəcək.



## PROQRAM ƏMƏKDAŞLIĞI ÇƏRÇİVƏSİ NECƏ FƏALİYYƏT GÖSTƏRƏCƏK?

Proqram Əməkdaşlığı Çərçivəsinin həm ölkə həm də regionla bağlı fəaliyyətləri Avropa Şurasının ölkələrlə bağlı Fəaliyyət Planları çərçivəsində yerli tərəfdaşlarla sıx məsləhətləşmələr əsasında hazırlanmışdır. Fəaliyyət Planları Avropa Şurasının monitorinq orqanlarının rəyləri və tövsiyələrinə əsaslanaraq hazırlanır və milli islahat gündəliklərinə uyğunlaşdırılır.

Proqram Əməkdaşlığı Çərçivəsi tədbirləri Şərq Tərəfdaşlığı ölkələrində fəaliyyət göstərən qurumların yerli islahatlar aparmaq gücünün artırılması ilə bağlı onları geniş və əsaslı təcrübə ilə təmin edəcək və onları insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində Avropa Şurası standartlarına daha da yaxınlaşdıracaq. Bu konfranslar, seminarlar, işçi qrupları, şəbəkələr, analitik hesabatlar və Avropa Şurası əməkdaşları və beynəlxalq ekspertlərin təşkil etdiyi təlim sessiyalar kimi müxtəlif tədbirlər vasitəsilə həyata keçiriləcək.

Cəlb olunan iştirakçılar islahatların aparılmasında həlledici rol oynayan yerli tərəfdaşlardır: parlamentlər, bütün səviyyələrdəki hökumət qurumları (ədliyyə, maliyyə, daxili işlər, səhiyyə, təhsil, əmək və sosial müdafiə nazirlikləri və dövlət idarəetmə orqanı), korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə kimi müvafiq sahələr üzrə dövlət qurumları, prokurorluqlar, hüquq-mühafizə orqanları, penitensiar müəssisələr, mərkəzi və yerli seçki komitələri, ombudsmanlar, məhkəmə ictimaiyyəti, məhkəmə özünüidarəetmə orqanları, hüquqşünaslar, media, yerli və regional hakimiyyət orqanları, qeyri-hökumət təşkilatları, elm-təhsil müəssisələri və həmçinin ümumi ictimaiyyət.

## Monitorinq orqanları

Avropa Şurasının monitorinq orqanları Avropa Şurasının Konvensiyalarının üzv dövlətlər tərəfindən icra edilməsinə nəzarət edən və tövsiyələr verən müstəqil ekspertlərdən ibarətdir. Monitorinq orqanlarına aşağıdakılar daxildir: Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO); Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ); İşgəncənin və qeyri- insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi(CPT); İnsan alverinə qarşı mübarizə üzrə ekspertlər qrupu (GRETA); Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL); Milli azlıqların müdafiəsinə dair Çərçivə Konvensiyası (FCNM); İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiya (ECRI); Qadınlara qarşı Zorakılıq və Məişət Zorakılığına qarşı Fəaliyyət üzrə Ekspertlər Qrupu (GREVIO); bura həmçinin Avropa İnsan Hüquqları Məhkəməsi də daxildir.



©pbombaert/Shutterstock.com

## PROQRAM ƏMƏKDAŞLIĞI ÇƏRÇIVƏSINI HANSI TƏŞKILATLAR KOORDINASIYA EDIR?

Avropa Şurası, Avropa İttifaqı, yerli tərəfdaşlar və partnyorlar və həmçinin beynəlxalq təşkilatlar arasında əhatəli və hərtərəfli koordinasiyanı təmin etmək məqsədilə Avropa Şurası, Avropa İttifaqı, Avropa Şurasının Regional Ofisləri, Avropa İttifaqı nümayəndəlikləri və Proqram Əməkdaşlığı Çərçivəsinin Milli Koordinatorları arasında daimi koordinasiya mexanizmi yaradılacaq.

Bu mexanizm Şərq Tərəfdaşlığı ölkələrində mövcud olan və planlaşdırılan ölkəyə xas və regional fəaliyyətlər arasında sinerjini təmin edəcək , son benefisiarlar və ümumi ictimaiyyət üçün Proqram Əməkdaşlığı Çərçivəsinin konkret nəticələrinə və təsirinə təminat verəcək.

## NƏTICƏLƏR DAVAMLIDIR?

Yerli tərəfdaşların islahat prosesinə sahib çıxması Proqram Əməkdaşlığı Çərçivəsinin nəticə yönümlü icrası və davamlılığı üçün çox əhəmiyyətli olacaq. Proqram Əməkdaşlığı Çərçivəsinin tədbirlərinin məqsədi milli hüquqi bazaların, milli institusional potensialın inkişafı və təkmilləşdirilməsi və həmçinin partnyorlar və yerli tərəfdaşların peşəkar bacarıqlarının və biliklərinin inkişaf etdirilməsidir. Davamlılıq yerli kadrların təlimi vasitəsilə institusional potensialın inkişafı ilə əldə ediləcək.

Proqram Əməkdaşlığı Çərçivəsi yerli iştirakçıların bilik və bacarıqlarının gücləndirilməsinə öz töhfəsini verəcək və beləliklə, onlar da öz növbəsində ölkə və region daxilində və həmçinin Proqram Əməkdaşlığı Çərçivəsinin icrası mərhələsindən sonra belə sözügedən məqsədləri öz həmkarları arasında təşviq edə biləcəklər.

# ƏTRAFLI MƏLUMATI HARDAN ƏLDƏ EDƏ BILƏRƏM?

- Avropa Şurası-Avropa İttifaqı Proqram Əməkdaşlığı Çərçivəsinin internet səhifəsi:
  **http://eap-pcf-eu.coe.int**
- Avropa İttifaqı Şərq Tərəfdaşlığının internet səhifəsi:
  **www.coe.int/en/web/programmes**
- Avropa Şurası: Proqramlar üzrə Baş İdarənin ofisinin internet səhifəsi:
  **www.eeas.europa.eu/eastern**
- Facebook
  **www.facebook.com/pages/CoE-EU-Eastern-Partnership-PCF**
- Twitter
  **https://twitter.com/CoeEapPCF**
- Əlaqə:
  **pcf@coe.int**

PREMS 088215 – Photos: Council of Europe

AZE

The Council of Europe is the continent's leading human rights organisation. It comprises 47 member states, 28 of which are members of the European Union. All Council of Europe member states have signed up to the European Convention on Human Rights, a treaty designed to protect human rights, democracy and the rule of law. The European Court of Human Rights oversees the implementation of the Convention in the member states.

**www.coe.int**

The European Union is a unique economic and political partnership between 28 democratic European countries. Its aims are peace, prosperity and freedom for its 500 million citizens – in a fairer, safer world. To make things happen, EU countries set up bodies to run the EU and adopt its legislation. The main ones are the European Parliament (representing the people of Europe), the Council of the European Union (representing national governments) and the European Commission (representing the common EU interest).

**http://europa.eu**

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe